AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

KÖNÜL MALİK QIZI HACIYEVA

# «ƏKİNÇİ» QƏZETİ XIX ƏSRIN II YARISI AZƏRBAYCAN TARİXİNİ ÖYRƏNMƏK ÜÇÜN MƏNBƏ KİMİ

**İxtisas: 5509.01. – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları**

**Tarix цзря фялсяфя доктору елми dərəcəsi almaq üçün təqdim едилмиш диссертасийанын**

**А В Т О Р Е Ф Е Р А Т Ы**

BAKI – 2013

Dissertasiya Bakı Dövlət Universitetinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** ***tarix üzrə elmlər doktoru,***
***prof.*** **A.C.İsgəndərov**

**Rəsmi opponentlər:** ***tarix üzrə elmlər doktoru,***
***prof.*** **L.L.Həsənova**

***tarix üzrə fəlsəfə doktoru***
**H.N.Həsənov**

**Aparıcı müəssisə:** **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrası**

Müdafiə «_14_» __12_ 2013-cü il tarixdə saat «___»-də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 fevral 2013-cü il tarixli 95 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən B/D.02.161 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» ___________ 2013-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi, tarix üzrə elmlər doktoru:** **prof. R.C.Süleymanov**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Hər hansı bir ölkənin tarixinin öyrənilməsində müvafiq mənbələr xüsusi əhəmiyyət kəsb edir. İnsan yarandığı gündən öz fəaliyyətində – konkret məqsədə nail olmaq prosesində müəyyən təcrübə qazanır. Bu faktı ayrı-ayrı dövlət və cəmiyyətlər üçün də demək mümkündür. İstənilən ölkənin tarixi hadisələrinin öyrənilməsində tarixi mənbə kimi səciyyələnə bilən bu təcrübələr toplusu məqsədə nail olmaq üçün yararlı vasitələrdəndir.

Mənbəşünaslıq tarix elminin bir bölməsi kimi humanitar dərketmənin xüsusi metodu sayıla bilər. Mənbəşünaslıqla bilavasitə mütəxəssislərin məşğul olması daha yüksək nəticə verir, lakin, bəzən elmi ədəbiyyatda mənbəşünaslıqla , tarixşünaslıqla bu sahəyə bələd olmayan insanların da məşğul olması təbii hal kimi qiymətləndirilir. Bunun üçün həmin şəxsin ancaq dövrün tarixi hadisələrinin iştirakçısı olması yetərli sayılır: "Tarixi tarixçilər – tarixi hadisələrin istirakçıları, öz dövrünün xadimləri yazır və yaza bilər".[1] Bu sözlərdə müəyyən qədər həqiqət var. Doğrudan da, bir çox tarixi sənəd və mənbə kimi müraciət edilən əsərlərin heç də hamısı tarixçilər tərəfindən yazılmayıb. Tədqiqat məqsədilə müraciət etdiyimiz "Əkinçi" qəzetinin yaradıcısı və əməkdaşları da tarixçi deyildilər, ancaq bilavasitə dövrün tarixi hadisələrinə biganə qalmamaları, hadisələrə maarifçi ziyalı kimi obyektiv yanaşmaları onların yaratdıqları informasiya orqanının tarixi mənbəyə çevrilməsinə rəvac verib. Qeyd etmək lazımdır ki, tarixi mənbə kimi nəinki təkcə tarixi sənədlərə, həmçinin ədəbiyyat, incəsənət, coğrafiya, dilçilik, dövlətçilik, hüquq, siyasətşünaslıq, mədəniyyətşünaslıq və s. kimi humanitar sahələrlə bağlı əsərlərə müraciət edilməsi təbiidir: "Azərbaycan ədəbiyyatının mükəmməl bir tarixi vardır, bu tarixi düzgün elmi metodologiya ilə araşdırmaq mütəxəssislərin işidir. Lakin bundan az olmayan bir məsələ də var: xalq öz ədəbiyyatını, tarixini bir-birindən təcrid olunmuş ədəbi fakt, yaxud hadisələr şəklində deyil, məhz düzgün elmi metodologiya əsasında, sistemli olaraq öyrənmək imkanına malik olmalıdır. Və ədəbiyyatın tarixi xalqa öz etno-kulturoloji kök-

---

[1] Журнал «Отечественная история», Москва: Наука, 2005, №4, s. 40.

ləri üzərində möhkəm dayanmaqda mənəvi ideoloji kömək göstərməlidir. Çünki ədəbiyyatda ehtiva olunmuş tarix ən səmimi, ən humanist tarixdir – bu tarix mənsub olduğu xalqı yüksəldərkən başqa xalqları alçaltmır, insana, dünyaya, Allaha məhəbbəti təbliğ edir".[1]

Bu baxımdan "Əkinçi" qəzetinin də dövrün reallığını əks etdirən xüsusi informasiya toplusu olduğunu deyə bilərik. Bu qəzet haqqında ulu öndər Heydər Əliyevin dedikləri tam həqiqətdir: "Fəxr edirik ki, bizim dünyəvi teatrın 130 illik tarixi vardır. Fəxr edirik və bu, bölgədəki bütün xalqlardan bizi fərqləndirir. O mənada ki, bizdə demokratik dünyəvi ideyalar bu günün, dünənin hadisəsi deyil. 125 il bundan öncə Həsən bəy Zərdabi, onunla bərabər Mirzə Fətəli Axundov və başqaları toplaşıb – təbiidir ki, Həsən bəy Zərdabi "Əkinçi" qəzetinin yaradıcısıdır – belə bir təşəbbüslə çıxış ediblər. Gərək indi biz düşünək ki, o vaxt bu asan yox, həddindən artıq çətin bir iş idi. Əgər 125 il bundan öncə bu baş veribsə və biz "Əkinçi" qəzetini 125 ildir xatırlayırıqsa, indi görün bu insanlar nə qədər böyük vətənpərvər, millətinin inkişafını istəyən və nə qədər cəsarətli insanlar olublar. Çünki o şəraitdə belə bir qəzeti Azərbaycan dilində yaratmaq çox böyük risklərlə bağlı idi. Amma onlar bu riskləri ediblər. Təsadüfi deyildir ki, "Əkinçi" qısa bir zamandan sonra bağlanıbdır".[2]

“Əkinçi” tam əsasla XIX əsrin 70-ci illərindəki Azərbaycan həyatının, Azərbaycan cəmiyyətinin ensiklopediyası adlandırıla bilər. “Hər vilayətin qəzeti gərək ol vilayətin aynası olsun, yəni ol vilayətin sakinləri elədiyi işlər, onlara lazım olan şeylər, xülasə onların hər bir dərdi və xahişi aynada görən kimi görsün” - ilk Azərbaycan qəzetinin əsas amalı və qayəsi bu sadə sətirlərdə öz əksini tapır. Qısa müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq, bu qəzet Azərbaycan tarixini, obyektiv reallığı öyrənmək üçün qiymətli tarixi mənbədir və eyni zamanda, ibrət verəndir, örnəkdir. "Şübhəsiz ki, xalqımızın böyük tarixi keçmişi vardır. Qəhrəmanlıq tarixi ilə öyünmək yox, sözün həqiqi mənasında ondan ibrət götürmək üçün biz bu tarixin qara səhifələrindən olan faciələrimiz üzərində də düşünməyi, gələcəkdə

---

[1] Cəfərov N. Azərbaycan: Dil, ədəbiyyat və mədəniyyət. Bakı, 2001, s. 66.

[2] “Azərbaycan” qəzeti, 2000-ci il, 25 iyul (Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi münasibətilə Respublika Prezidenti H.Əliyevin jurnalistlərlə görüşündəki nitqi).

isə belə halların təkrarlanmaması üçün düzgün nəticə çıxarmağı bacarmalıyıq. Acı da olsa, etiraf etməliyik ki, biz öz səhvlərimizdən ibrət götürməyə tələsmirik".[1]

"Əkinçi" qəzeti tarixi mənbə kimi bədii-tarixi tədqiqat materialıdır. Qarşıya qoyulan problemlərin, məqsəd və vəzifələrin həlli üçün tarixşünaslıqla bağlı tədqiqatlara müraciət etməklə yanaşı, ədəbiyyatşünaslıqla əlaqəli olan mənbələr də nəzərdən keçirilməlidir. Bu mənbələr kifayət qədərdir və istənilən sahədə tarixi araşdırmaların aparılmasına geniş zəmin yaradır, o cümlədən Azərbaycanın tarıxini müxtəlif aspektlərdən və müxtəlif maraq dairəsindən öyrənməyə kifayət qədər material verir. Bu mənbələr sırasına "Əkinçi" qəzetini də əlavə etmək olar. Belə ki, qəzetin müxtəlif saylarında Azərbaycanın, Dağıstanın, Osmanlı ərazisinin, o cümlədən dünyanın müxtəlif bölgələrində cərəyan edən tarixi prosesləri izləmək, dünya tarixinin bir çox problemlərini tədqiq etmək üçün kifayət qədər materiallar mövcuddur. Burada ən böyük tarixi hadisələrdən tutmuş, dünyanın, o cümlədən Azərbaycanın demoqrafik problemlərini əks etdirən geniş və zəngin məlumatlar yer alıb. Hətta tarixşünaslıqda həllini tapmayan bir sıra problemlərin, məsələn, demoqrafik, regionşünaslıq, mənbəşünaslıq və s. bu kimi məsələlərin araşdırılması üçün "Əkinçi" qəzeti zəngin materiala malikdir. Həsən bəy Zərdabi və "Əkinçi"nin digər əməkdaşları dövrün zəruri problemlərini görərək, onları qəzetin səhifələrində işıqlandırmışlar.

“Əkinçi” qəzeti dəyişən zamanda və dəyişən şərtlər daxilində xalqı yaşayış uğrunda mübarizəyə hazır olmağa səsləyirdi. “Bizim zəmanəmiz dəyişib, biz elm sahiblərinə rast gəlmişik” – deyə Həsənbəy Zərdabi “Daxiliyyə” adlandırdığı baş məqalələrin birində yazırdı: “Bizim ilə zindəganlıq cəngi edən millətlər elm təhsil edirlər. Ona binaən gərək biz də elm təhsil edək ki, onlara zindəganlıq cəngində qalıb olmasaq da, onların bərabərində dayanıb duraq, yoxsa dövlət və xoşgüzəranlıq onların əlinə gedəcəkdir və bizlər mürur ilə zindəganlıq cəngində məğlub olub tələf olacayıq”.[2] Başqa bir nömrədə “Harayçı qardaş” təxəllüslü müəllif bu “zindəganlıq cəngindəki” –

---

[1] İsgəndərov A. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı: Mütərcim, 1997, s. 6.

[2] “Əkinçi”, 1875, 20 sentyabr, №5.

yaşayış uğrundakı mübarizədə acı məğlubiyyətlərlə bağlı sözün həqiqi mənasında haray çəkərək yazırdı: “Pəs, qardaşlar, unun səbəbi elmsizlik deyilmi ki, bizim gözəl vətənimizdə çörək tapmaq olmadığına xalq baş götürüb diyarbədiyar gəzib külfətindən, millətindən, məzhəbindən əl çəkib milçək təki tələf olur?”.[1]

“Əkinçi” Bakıda çap olunsa da, tezliklə Ümumrusiya müsəlmanlarının qəzetinə çevrildi. Onu Dağıstanda və Volqaboyunda, Mərkəzi Asiyada və Sibirdə oxuyurdular. “Qəzet Rusiyadakı müsəlmanları yerindən tərpətmişdi. O, bir elektrik cərəyanı kimi bütün müsəlman aləminin içərisindən keçmişdi” - deyərək Zərdabilər ailəsinin sevincli günlərini xatırlayan Hənifə xanım Abayeva sonralar yazırdı: «Qəzetiə hər yerdən Omskdan, Orenburqdan, Ufadan, Volqaboyundan və Krımdan təbriklər və abunələr gəlməyə başladı».[2] Zərdabinin yetirmələri - Əsgərağa Gorani və Nəcəfbəy Vəzirov “Əkinçi”yə Moskvadan yazırdılar. M.F.Axundzadə Tiflisdən “Vəkili-naməlumi-millət” təxəllüsü ilə “Əkinçi”yə məqalələr göndərirdi. Şamaxıdan Seyid Əzim Şirvani “Pəs “Əkinçi” cəlalimizdir bizim!” - deyərək bütün yaxşı insanları bu milli nəşrin ətrafında birləşməyə və onu yaşatmağa çağırırdı. “Əkinçi”nin sorağı hətta Londona da gedib çıxmışdı.

Həsən bəy Zərdabi dövrün tarixi şəraiti ilə bağlı bütün çatışmazlıqların aradan qaldırılmasının mümkünlüyünü xalqın psixologiyasında, milli şüurunda, ümumi davranışında, dünyada gedən proseslərə uyğun şəkildə mütərəqqi dəyişikliklərin edilməsində görürdü və şübhəsiz ki, bunlar üçün müstəqilliyin, əsarətdən qurtulmanın əhəmiyyət kəsb etdiyini başa düşürdü.

Həsənbəy Zərdabi işlədiyi bütün sahələrədə öz xalqına xidmət göstərməyə çalışırdı. Onun təkidli tələbləri nəticəsində şəhər dumasına seçilən azərbaycanlı üzvlərin sayı ümumi tərkibin yarısına çatdırılmışdı. Şəhərə içməli su gətirilməsi, tramvay xətti çəkilməsi , təhsil və səhiyyə ocaqlarının açılması , abadlıq işlərinin görülməsi və s. bu kimi məsələlərdə Həsənbəy həmişə fəal vətəndaş mövqeyindən, milli maraq və mənafelərdən çıxış etmiş, erməni mafiyasının timsalında

[1] “Əkinçi”, 1875, 21 avqust , № 3.
[2] “Revolyusiya və kultura” jurnalı, 1939, № 6 (Məlikova Hənifə xanım. “Həsənbəy Zərdabinin tərcümeyi-halı), s. 116.

özünə çoxsaylı düşmənlər qazanmışdı. Amma bütün hədə və təqiblərə baxmayaraq, onu tutduğu yoldan, öz mübarizəsindən çəkindirmək mümkün olmamışdı.

Zərdabi xalqın başına gələn fəlakətlərin və açılan oyunların əsas səbəbini savadsızlıqda, cahillik və fanatizmdə görürdü. Onun fikrincə, bütün bu bəlalardan xilas olmağın yeganə yolu geniş maarif şəbəkəsinin, qabaqcıl təhsil sisteminin qurulması idi.

"Əkinçi"də o dövrün azərbaycanlısının təsəvvürlərini genişləndirməyə, onu dünyada gedən proseslərdən xəbərdar etməyə yönələn onlarla yazı, məqalə çap olunmuşdu. "Əkinçi" sözünün adı təsadüfi seçilməmişdi. Bu adın qəzetin yalnız aqrar istiqamətini müəyyənləşdirdiyini düşünmək olmaz. "Əkinçi" sözünün altında böyük rəmzi məna, geniş və əhatəli fəaliyyət proqramı gizlənirdi. Azərbaycan kəndlisini təkcə daha yaxşı, çağdaş üsullar əsasında daha səmərəli, daha keyfiyyətli işləməyə öyrətmək yox, həm də onun ürəyinə, şüuruna maarif toxumu səpmək lazım idi. Təkcə "yağdan süd qayırmağı" öyrətmək yox, həm də bir millət kimi monolit şəkildə birləşməyi bacarmaq, millətin "yağı yağ üstə çıxıb ayranı ayranlıq" olmasına çalışmaq lazım idi. Bir sözlə, maarif əkinçisi üçün ən böyük meydan şüurunu fanatizm, cəhalət və laqeydliyin alaq otları basmış geniş kütlə idi. Həsənbəy Zərdabi özü Azərbaycanın mədəniyyəti tarixində belə bir Əkinçi oldu.

"Əkinçi" qəzeti XIX əsrin ikinci yarısında yalnız Azərbaycan tarixinin deyil , eləcə də o dövrdə bütün dünyada baş verən ictimai-siyasi proseslərin düzgün qiymətləndirilməsi, iqtisadi və mədəni hadisələrin öyrənilməsi, tarixi həqiqətlərin üzə çıxarılması üçün əvəzsiz və qiymətli mənbədir. Elə buna görədir ki, müxtəlif elm sahələri üzrə bu mənbəyə müraciət çoxluğu ilə səciyyələnir.

"Əkinçi" qəzetinin istiqamətindəki universallıq, orada verilən bilgilərin, informasiyaların müxtəlifliyi ona mənbə kimi müxtəlif elmi aspektlərdən müraciət edilməsinə şərait yaradır. "Əkinçi" qəzetinin çoxşaxəliliyi müəlliflərə həmin qəzetin materiallarına söykənməsinə yol verməklə yanaşı, özündən sonra çap olunan mətbuat orqanlarının da həmin sistemi örnək və model kimi götürməsinə səbəb olub və deməli, XIX əsrin sonlarında çap olunmuş digər mətbuat orqanları da ("Ziya", "Kaspi", "Ziyayi-Qafqaziyyə" və s.) tarixi

mənbə rolunu oynaya bilər. Eyni sözləri müasir kütləvi informasiya vasitələri haqqında da söyləmək olar. Müəyyyən zaman kəsiyindən sonra həmin mətbuat orqanları gələcək nəsillər üçün tarixi mənbə sayıla bilər. Buna görə də qəzet əməkdaşlarının nə qədər məsuliyyətli bir işə girişdiyini və bu məsuliyyətin həm də tarixi əhəmiyyət daşıdığını demək mümkündür.

Bütün deyilənləri ümumiləşdirərək qeyd etməliyik ki, “Əkinçi” qəzeti həm Azərbaycan, həm də digər xalqların tarixini öyrənməkdə qiymətli tarixi mənbədir. Xüsusilə də XIX əsrin ikinci yarısının keçid dövrünü yaşayan Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb edən bir dövr olduğu nəzərə alınsa, onda "Əkinçi" qəzetinin dövrün reallıqlarını əks etdirən əvəzsiz bir mənbə olduğu danılmazdır. Buna görə də "Əkinçi" qəzetinin tarixi mənbə kimi araşdırılması xüsusi aktuallıq kəsb edən problemə, mövzuya çevrilir. Tədqiqatda əsas diqqət Azərbaycanın iqtisadi və siyasi tarixinə, onlar arasındakı qarşılıqlı münasibətlərə xüsusi diqqət yetirilir ki, bu da tarix elmi üçün xüsusi aktuallıq kəsb edir.

Problemin aktuallığını şərtləndirən amillərdən biri də XIX əsrin sonlarında ictimai-siyasi proseslər zəminində ölkə həyatında baş verən dəyişikliklərin və hadisələrin izlənilməsidir. Qeyd etmək lazımdır ki, qəzet özü bəzən tarixə ekskurs etmiş və bu məlumatlar da tədqiqat zamanı nəzərdən qaçırılmamış, tarixi fakt kimi qeyd edilmişdir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqat 1875-ci ilin iyulundan, 1877-ci ilin sentyabrına qədər olan dövrü əhatə edir. Belə ki, “Əkinçi” qəzetinin ilk nömrəsi 1875-ci il iyulun 22-də nəşr olunmuş və həmin ildə qəzetin 12 nömrəsi çap edilmişdir. 1876-cı ildə qəzetin 24 nömrəsi, 1877-ci ildə isə 20 nömrəsi nəşr edilmişdir. Ciddi təzyiqlərə məruz qalan qəzetin 1877-ci il sentyabrın 29-da sonuncu nömrəsi çapdan çıxmış və qəzet bağlanmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi.** “Əkinçi” qəzeti ilə bağlı tədqiqatlardan danışarkən XIX əsrdə yaşamış məşhur ziyalılarımızın, ictimai-siyasi xadimlərimizin qəzet haqqında söylədikləri fikirləri ilk növbədə qeyd etmək lazımdır. Bu baxımdan M.F.Axundzadənin H.Zərdabiyə yazdığı məktublar,[1] eləcə də professor Əziz Şərifin

[1] Axundov M.F. Əsərləri, III cild. Bakı: Elm, 1988.

fikrinə əsasən, Axundzadəyə aid olan[1] və "Qafqaz" qəzetində çap edilən üç məqalə xüsusi maraq doğurur. Hələ "Əkinçi"nin nəşri ərəfəsində Axundzadə məktublarında gələcək qəzetin dili, üslubu, təmizliyi, orfoqrafiyaya riayət qaydaları haqqında tövsiyələr verir.

"Qafqaz" qəzetində imzasız çıxmış və Axundzadəyə aid edilən üç məqalənin birincisində cari ildə Bakıda "Əkinçi" qəzetinin çıxacağı və bunun üçün qəzetin redaktoru Həsən bəy Məlikovun şrift gətirmək üçün İstanbula getməsi barədə məlumat verilir. İkinci məqalədə "Əkinçi" qəzetinin ilk nömrəsinin çıxması, onun ideya istiqaməti, Şərqdə mətbuat işinin çətinliyi və s. məsələlərdən danışılır. Üçüncü məqalədə isə qəzetin demək olar ki, illik nəşrinin xülasəsi verilmiş, qəzetin forması və görünüşü dəqiq təsvir olunmuşdur. Məqalədə həmçinin qəzetin geniş oxucu kütləleri üçün daha əlyetən və başa düşülən etmək haqqında məsləhətlər verilir. Məqalə müəllifin bu həyacanlı nidası ilə bitir: "Bizdə Qafqazda ilk müsəlman qəzetinin redaktoru və banisinə eşq olsun. Göründüyü kimi, o, qəzet işi ilə məhəbbətlə məşğul olur, halbuki qəzetin nəşri üzərində tək çalışır, özü həm redaktor, həm korrektor, həm mühərrirdir". Həmin məqalələrdən ölkənin o zamankı siyasi, iqtisadi və mədəni vəziyyəti haqqında da məlumatlar əldə etmək mümkündür.

"Əkinçi" qəzetinin nəşrə başlamasının 30 illiyi ilə əlaqədar H.Zərdabinin "Həyat" qəzetində[2] dərc etdirdiyi "Rusiyada əvvəlimci türk qəzeti" adlı məqaləsi, fikrimizcə, qəzet haqqında yazılan ən dəyərli məqalədir. Bu məqalədə Zərdabinin özü tərəfindən bir çox məsələlərə aydınlıq gətirilir. H.Zərdabi qəzeti çıxarmaq üçün qarşısına çıxan çətinlikləri sadalayır, eləcə də qəzetin yaranma prosesini, onun rastlaşdığı senzura şəraitini özünə məxsus şəkildə izah edir.

"Əkinçi"ni öyrənərək bu haqda bir sıra məqalələr yazan görkəmli alim və tədqiqatçı Firidun bəy Köçərli[3]"Əkinçi" ənənələrini sevmiş və daim öz müasirlərinə bu qəzetin irsindən bəhrələnməyi, eləcə də "Əkinçi" qəzetindəki yazıları müəyyən sistem halına salıb

---

[1] «Литературный Азербайджан», 1970, № 8 (Азиз Шариф. (Мирза Фатали Ахундов и Гасан-бек Зардаби).

[2] "Həyat" qəzeti,1905, 28 dekabr, №129.

[3] Köçərli F. Seçilmiş əsərləri. Bakı,1963.

Azərbaycan dilində nəşr edilən dövri jurnallarda çap etdirməyi məsləhət görmüşdür.

Azərbaycan mətbuatının 50 illiyi münasibəti ilə nəşr olunmuş kitabda "Şərqli" imzası ilə Fərhad Ağazadənin böyük bir məqaləsi və eləcə də H.Zərdabinin "Rusiyada əvvəlimci türk qəzetəsi" məqaləsi çap olunmuşdur.[1] F.Ağazadə Həsən bəy Zərdabinin həyat və yaradıcılığından geniş söhbət açmış, "Əkinçi" qəzetinin rastlaşdığı çətinlikləri qələmə almışdır.

H.Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikovanın 1925-ci ildə yazdığı və "Революция и культура" jurnalında çap olunmuş "Həsən bəy Zərdabinin tərcümeyi-halı" adlı xatirələrinin də "Əkinçi" qəzetinin tarixinin öyrənilməsində böyük əhəmiyyəti vardır.

"XIX əsr Azərbaycanın ictimai və fəlsəfi fikir tarixindən" adlı əsərində H.Hüseynov A.Bakıxanov, M.F.Axundzadə və başqaları ilə yanaşı H.Zərdabinin yaradıcılığına, "Əkinçi" qəzetinin təhlilinə də xüsusi diqqət yetirmişdir.[2] Müəllif qəzetin Azərbaycandan kənarda öyrənilməsini də tədqiqata cəlb etmişdir.

M.İbrahimov C.Məmmədquluzadənin yaradıcılığına həsr etdiyi "Böyük demokrat" monoqrafiyasında[3] ""Əkinçi"dən "Molla Nəsrəddin"ədək mətbuatımızın keçdiyi yol"dan bəhs edir.

Ziyəddin Göyüşov ilk dəfə olaraq, H.Zərdabinin "Əkinçi", "Həyat" qəzetlərində, "Dəbistan" və "Məktəb" məcmuələrində çap olunan məqalələrini toplamış və kitab şəklində Azərbaycan və rus dillərində nəşr etdirmişdir.[4]

"Əkinçi"qəzetinin biblioqrafiyası üç dəfə tərtib və nəşr olunmuşdur; Sadıq Hüseynovun ""Əkinçi" qəzetinin izahlı biblioqrafiyası",[5] Vəli Məmmədovun "Əkinşi" qəzetinin göstəri-

---

[1] Azərbaycan mətbuatının 50 illiyi, "Əkinçi" 1875–1925. Bakı: "Kommunist" qəzetinin nəşriyyatı.

[2] Hüseynov H. XIX əsr Azərbaycanın ictimai və fəlsəfi fikir tarixindən. Bakı, 1997.

[3] İbrahimov M. Böyük demokrat. Bakı: Azərnəşr, 1957.

[4] Zərdabi H. Seçilmiş əsərləri. (Tərtib, qeydlər və müqəddimə Z.B.Göyüşovundur). Bakı: Azərnəşr, 1960; Зардаби Г.Б. Избранные статьи и письма. (Составление, предисловие, комментарии и примечания З.Б.Геюшова). Баку, 1962.

[5] Hüseynov S. "Əkinçi" qəzetinin izahlı biblioqrafiyası. Bakı, 1963.

cisi”,[1] Mirabbas Aslanovun “”Əkinçi” qəzetinin biblioqrafiyası”[2] kitabları bu sahədə atılmış uğurlu addımlardır. Bu kitablarda qəzetdə gedən materialların müxtəsər izahı verilir, gizli imzalar, yaxud imzasız məqalələrin müəllifləri müəyyənləşdirilir. S.Hüseynov “Əkinçi” qəzetinin izahlı biblioqrafiyasını xronoloji ardıcıllığına görə tərtib edib sistemləşdirmiş və hər bir ilin daxilindəki materialları əlifba sırası ilə vermişdir. V.Məmmədovun tərtib etdiyi göstəricidə qəzetin şöbələri ayrı-ayrılıqda təhlilə cəlb edilir, “Əkinçi”dəki materiallar qısa şəkildə şərh olunur.

Əkinçi” qəzetinin tarixşünaslığı baxımından V.Məmmədovun ”Əkinçi” qəzeti”[3] əsəri böyük maraq doğurur. Kitabda ”Əkinçi”nin nəşri tarixindən, qəzetin ideya istiqamətindən, şöbələrindən, əsas müəlliflərindən , müxbirlərindən bəhs edilir, eləcə də dil, ədəbiyyat və incəsənət məsələləri haqqında dolğun şəkildə məlumat verilir.

Nazim Axundovun “Əkinçi” qəzetinin 100 illiyinə həsr etdiyi “Azərbaycan mətbuatının ilki” kitabında[4] qəzetin nəşri, onun şöbələri və məzmunu haqqında ətraflı danışılır.

Xeyrulla Məmmədovun ”Əkinçi”dən “Molla Nəsrəddin”ə qədər”[5] monoqrafiyası da qəzetin tədqiqi baxımından maraq doğurur. Kitabda XIX əsrin sonu – XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının təsviri verilir, milli maarifçilik və bu işdə “Əkinçi”nin yeri geniş şərh edilir.

Həsən bəy Zərdabinin zəngin fəaliyyəti, dünyagörüşü tədqiqatçıların diqqətini daim cəlb etmiş, onun ictimai-siyasi həyatın və elmin müxtəlif sahələrinə aid fikir və baxışları araşdırılmışdır. Bunlardan Z.Məmmədovun “Həsənbəy Zərdabi”,[6] Z.Göyüşovun “H.Zərdabinin dünyagörüşü”,[7] İ.Rüstəmovun “Həsənbəy Zərdabi”,[8] Q.N,Behbudovun “Həsənbəy Zərdabinin siyasi-hüquqi gö-

---

[1] Məmmədov V. “Əkinçi” qəzetinin göstəricisi. Bakı, 1963.
[2] Aslanov M. “Əkinçi” qəzetinin biblioqrafiyası. Bakı: Şirvannəşr, 2005.
[3] Məmmədov V. “Əkinçi” qəzeti. Bakı, 1976.
[4] Axundov N. Azərbaycan mətbuatının ilki... Bakı, 1976.
[5] Məmmədov X. “Əkinçi”dən “Molla Nəsrəddin”ə qədər. Bakı, 1987.
[6] Məmmədov Z. Həsənbəy Zərdabi. Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı nəşriyyatı, 1957.
[7] Геюшов З.Б. Мировоззрение Г.Б.Зардаби. Баку, 1962.
[8] Rüstəmov İ. Həsənbəy Zərdabi. Bakı, 1969.

rüşləri"[1], Ş.Məmmədovun "Həsən bəy Zərdabinin dünyagörüşü"[2]və s. monoqrafiyalarını qeyd etmək olar. Bu kitablarda Zərdabinin fəaliyyətinin müxtəlif sahələri əhatə olunsa da, "Əkinçi" qəzeti haqqında geniş söhbət açılmır.

**Tədqiqatın mənbə bazası.** Tədqiqatın əsas mənbə bazasını "Əkinçi" qəzeti təşkil edir. Qeyd etməliyik ki, "Əkinçi" qəzetinin kiril əlifbası ilə tam mətni 1979-cu ildə kitab şəklində nəşr olunmuşdur.[3] Nəşrin ümumi rəhbəri, redaktoru və müqəddimənin müəllifi Əziz Mirəhmədov, mətni əski əlifbadan kiril əlifbasına transliterasiya edən isə Turan Həsənzadədir."Əkinçi"nin mətninin kiril əlifbası ilə nəşr edilməsi onun geniş oxucu kütləsinə təqdim edilməsinə səbəb olmuş və bu baxımdan böyük əhəmiyyət kəsb etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən ,[4] Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin vaxtilə kiril qrafikası ilə çap olunmuş qiymətli nümunələrinin latın qrafikasında yenidən nəşr olunması vacib sayılan ədəbiyyatların siyasında "Əkinçi"nin də adı vardır. Məhz bu sərəncama əsasən, "Əkinçi"nin 1979-cu ildə kiril qrafikası ilə kitab şəklində çap olunmuş tam mətni 2005-ci ildə latın qrafikası ilə yenidən nəşr olunmuşdur.[5]

Mövzu tədqiq olunarkən H.Zərdabinin Azərbaycan Respublikası Elmlər Akademiyasının Respublika Əlyazmalar Fondunda saxlanılan arxivindən istifadə edilmişdir.[6] Tədqiqatın gedişində lazım gəldikcə bir sıra digər mətbuat orqanlarına da müraciət olunmuşdur.

---

[1] Behbudov Q.N. Həsənbəy Zərdabinin siyasi-hüquqi görüşləri. Bakı: Elm, 2000.

[2] Мамедов Ш.Ф. Мировоззрение Гасан-бека Зардаби. Москва, 1960.

[3] "Əkinçi" (Tam mətni). Tərtib edəni T.Həsənzadə, redaktoru Ə.Mirəhmədov. Bakı: Azərnəşr, 1979.

[4] "Respublika" qəzeti, 2004-cü il, 13 yanvar ("Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı).

[5] Əkinçi 1875-1877 (tam mətn). "Avrasiya Press nəşriyyatı", Bakı. 2005.

[6] Azərbaycan Respublikası Elmlər Akademiyası Əlyazmalar fondu. Həsənbəy Zərdabi arxivi, inv. № 46; Azərbaycan Respublikası EA RƏF. H.Zərdabi arxivi, inv. № 3 (103)

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi "Əkinçi" qəzetini tarixi mənbə kimi səciyyələndirməkdir. Bu məqsədə nail olmaq üçün aşağıdakılar bir vəzifə kimi qarşıya qoyulmuşdur:

- xronoloji ardıcıllığa riayət etməklə "Əkinçi" qəzetinin məzmununu səciyyələndirmək;
- dünya mətbuat tarixi və Azərbaycan mətbuatının bu sistemdə yerini müəyyənləşdirmək;
- Azərbaycan mətbuatının yarandığı tarixi şəraiti və "Əkinçi" qəzetinin çapını zəruriləşdirən amilləri üzə çıxarmaq;
- Azərbaycan mədəniyyət tarixində Zərdabi dövrünü müəyyənləşdirmək;
- "Əkinçi" qəzetinin missiyası, məqsəd və vəzifələrini şərh etmək;
- "Əkinçi" qəzetinin bölmələrini müvafiq tarixi mənbə kimi səciyyələndirmək;
- erməni riyakarlığının ifşasında "Əkinçi" qəzetinin tarixi mənbə kimi əhəmiyyətini üzə çıxarmaq;
- Azərbaycan mədəniyyətinin inkişafında "Əkinçi" qəzetinin müstəsna əhəmiyyət kəsb etməsini göstərmək.

**Tədqiqatın elmi yeniliyi.** Hər şeydən əvvəl qeyd etməliyik ki, Həsən bəy Zərdabinin yaradıcılığı və onun təsis etdiyi "Əkinçi" qəzeti haqqında heç də az yazılmamış, az deyilməmişdir. Lakin bu dissertasiyada Azərbaycan tarixində ilk dəfə olaraq "Əkinçi" qəzetindən bir tarixi mənbə kimi istifadə edilir. Tədqiqat işində bu qəzet sistemli şəkildə tarixi faktlar və dövrlər baxımından ətraflı şərh edilir ki, bu da onun elmi yeniliyini şərtləndirir. Tədqiq olunan mənbənin çoxşaxəliliyi, universallığı ilk dəfə olaraq bir sistem şəklində izahını tapır, belə ki, bu dissertasiyaya qədər nəşr olunmuş elmi əsərlərdə qəzetə ayrı-ayrı elm sahələrinin marağı daxilində müraciət edilmişdir. Bu dissertasiyada isə ilk dəfə olaraq "Əkinçi" qəzetinə universal bilgilərə malik tarixi mənbə kimi müraciət edilir. Tədqiqatın yeniliyi təkcə bunlarla bitmir, tədqiqat köhnə stereotiplərdən fərqli şəkildə, daha müstəqil, daha tənqidi aparılmış, tarixi fakt, tarixi hadisələrə məhz bu günün gözü ilə milli və nəzəri münasibət əsas götürülmüşdür.

**Tədqiqatın metodoloji əsası.** Tədqiqatın metodoloji əsasını obyektivlik və tarixilik prinsipləri, bütün mənbə və məlumatların kompleks şəkildə və tənqidi təhlilinə əsaslanan tarixi tədqiqat metodu təşkil edir. Dissertasiya mənbəşünaslığa uyğun olaraq tarixi-müqayisəli metodla yazılmış, yeri gəldikcə təsviri metod tətbiq edilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyadan Azərbaycan tarixinin öyrənilməsi və tədris edilməsində geniş istifadə etmək olar. Buradakı nəzəri fikirlər yeniliyi, aktuallığı ilə seçilir ki, bu da ali və orta məktəblərin müvafiq bölmə və kurslarında dissertasiyaya tədris vəsaiti kimi müraciət edilməsini zəruri edir və onun təcrübi əhəmiyyətini artırır. Təqdim olunan dissertasiya Azərbaycan ədəbiyyatına, mətbuat tarixinə aid ümumi və ixtisas kurs fənlərində istifadə edilə bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universitetinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas məzmununu əhatə edən məqalələr vaxtaşırı dövri mətbuatda çap edilmiş və universitet, respublika səviyyəli konfranslarda məruzə edilmişdir.

**Dissertasiyanın quruluşu.** Təqdim olunan dissertasiya giriş və beş paraqrafı əhatə edən üç fəsildən ibarətdir. Tədqiqat zamanı əldə olunan elmi qənaətlər dissertasiyanın nəticə hissəsində, istifadə edilmiş ədəbiyyat siyahısı isə sonda verilmişdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** işin ümumi səciyyəsi, mövzunun aktuallığı, problemin xronoloji çərçivəsi, tədqiqatın məqsəd və vəzifələri, problemin öyrənilmə səviyyəsi, dissertasiyasının mənbə bazası, tədqiqatın metodoloji əsası, dissertasiyanın elmi və praktiki əhəmiyyəti haqqında məlumat verilmişdir.

Dissertasiyanın **"Azərbaycanda milli mətbuatın yarandığı tarixi şərait"** adlanan birinci fəsli iki paraqrafdan ibarətdir. Birinci paraqraf **"Mətbuatın yaranmasını zəruri edən amillər"** adlanır. Burada qeyd olunur ki, Azərbaycan XIX əsrdə bir çox sahələr üzrə yeniliklərlə qarşılaşdı. Belə ki, XIX əsrin II yarısı Azərbaycanda

feodal münasibətlərinin süquta uğraması və yeni kapitalist münasibətlərinin yaranıb inkişaf etməsi ilə xarakterizə olunur. Eyni zamanda Rusiya tərəfindən işğal edilmiş Azərbaycan Rusiyanın həm iqtisadi, həm də siyasi müstəmləkəsinə çevrilirdi. Rusiyanın təsiri altına keçməsi Azərbaycanda feodal münasibətlərindən kapitalist münasibətlərinə keçid prosesinə müəyyən qədər təsir göstərsə də, bu prosesi Rusiyada kapitalizmin "eninə" inkişafı ilə bağlamaq tamamilə yanlışdır.

Rusiyada 1861-ci il kəndli islahatının təbii nəticəsi kimi 1870-ci ildə Azərbaycanda kəndli islahatı haqqında fərman verildi. Bu islahat yalnız sahibkar kəndlilərinə aid edilmişdi. Azərbaycanda isə kəndlilərin yalnız 20%-ni (bəzi hesablamalara görə isə 25 – 30%-ni sahibkar kəndlilər, qalan hissəsini isə dövlət kəndliləri təşkil edirdilər. Lakin buna baxmayaraq, 1870-ci il kəndli islahatı Azərbaycan tarixində feodal münasibətlərini sarsıdan, kapitalist münasibətlərinin yaranmasına və inkişafına səbəb olan bir amil kimi qiymətləndirilir. Ölkənin iqtisadiyyatında, sənayesində, kənd təsərrüfatında gedən proseslər, daha doğrusu tərəqqi, inkişaf xalqın mədəniyyətinə, təhsilinə, ədəbiyyat və incəsənətinə də öz təsirini göstərirdi. Elmin ayrı-ayrı sahələri inkişaf edirdi. Xüsusilə təbiət elmlərinin inkişafı Azərbaycanda olan təbii sərvətlərin yataqları, bu yataqların kəşfi və istifadə olunması ilə sıx bağlı idi. Neftlə əlaqəli elm sahələri daha sürətlə inkişaf edirdi. Təbiət elmləri ilə yanaşı tarix, ədəbiyyat, dilçilik, incəsənət və tətbiqi sahələrlə bağlı elmlər də tərəqqi edirdi.

Bu paraqrafda dünyada baş verən inkişaf, tərəqqi meyllərinin mətbuata təsirindən ətraflı bəhs edilir. XVII əsrdə, yəni 1631-ci ildə Fransada dünya tarixində ilk dəfə olaraq həftəlik "Qazett"yaradıldı. İlk jurnalın nəşri də həmin dövlətin payına düşdü və 1665-ci ildə aylıq "Jurnal de savan" jurnalı çap edildi. Tərəqqi, mətbuat yaranışı qərbdən şərqə doğru irəliləyirdi. Bu irəliləyişdə Rusiya bir keçid, vasitə idi. Rusiyada ilk çap qəzeti, nəşri I Pyotrun fərmanı ilə başlayan "Ведомости" (1702), ilk gündəlik qəzet isə "Санкт-Петербургские Ведомости" (1815) olmuşdur. İlk inqilabi proletar qəzet isə 1848 – 1849-cu illərdə K.Marks və F.Engelsin Kölndə nəşr etdirdikləri "Noye Reynişe saytunq" ("Yeni Reyn qəzeti") qəzeti olmuşdur.

1828-ci ilin iyun ayında Tiflis şəhərində rus dilində çıxan "Тифлисские ведомости" ("Tiflis əxbarı") qəzeti 1829-cu ildə gürcü dilində, 1830-cu ildə fars dilində, 1832-ci ildə isə Azərbaycan dilində buraxılmışdı.

Tiflisdə 1838 – 1864-cü illərdə rus dilində nəşr edilən "Закавказский вестник" adlı qəzet 1845-ci ildən gürcü və Azərbaycan dillərində də buraxılmışdır. Həmin qəzet "Qafqazın bu tərəfinin xəbərləri" adlanırdı. Deməli, Azərbaycan dilində ilk çap qəzetləri Tiflisdə nəşr edilən "Tiflis əxbarı" (1832) və "Qafqazın bu tərəfinin xəbərləri" (1845) olmuşdur. Lakin hər iki qəzet hökumət orqanları tərəfindən buraxılır və burada, əsasən, rəsmi sənədlər və xəbərlər dərc edilirdi. Mətbuat sahəsindəki bu tərəqqi milli ziyalılarda, o cümlədən Azərbaycan ziyalılarında bu yolla xalqa xidmətn zəruriliyi fikrini formalaşdırır. Rusiyada təhsil alıb vətənə dönən Həsənbəy Zərdabi tərəqqidə, milli dirçəlişdə müstəsna əhəmiyyətə malik olan mətbuatın Azərbaycanda da yaradılmasına böyük ehtiyac olduğunu vaxtında duyaraq, həm özünü, həm də dövrün tanınmış vətənpərvər ziyalılarını bu işi reallaşdırmaq üçün səfərbər etdi. Beləliklə, Azərbaycan dilində ilk milli mətbu orqanı "Əkinçi" nəşr edilməyə başladı.Milli mətbuatın ilk nömrəsi 1875-ci il iyul ayının 22-də çapdan çıxdı.

I fəslin **"H.Zərdabi və onun ictimai-siyasi görüşlərinin formalaşması"** adlanan ikinci paraqrafda böyük alim, pedaqoq, jurnalist və ictimai xadim Həsənbəy Zərdabinin tərcümeyi-halı haqqında məlumat verildikdən sonra, onun bir çox sahələrin yaradıcısı olduğu qeyd olunmuşdur. Belə ki, ilk xeyriyyə cəmiyyətinin, milli teatrın, mətbuatın yaradılması məhz Zərdabinin adı ilə bağlıdır. Bu paraqrafda H.Zərdabinin dünyagörüşünün təşəkkülündə Rusiyada təhsil aldığı dövrün böyük rol oynadığı qeyd olunur. Moskvada oxuduğu dövrdə Zərdabi Belinski, Çernışevski, Gertsen, Dobrolyubov kimi yazıçı və mütəfəkkirlərin əsərlərini tədqiq edərək püxtələşmiş, maarifçi Azərbaycan ziyalısı səviyyəsinə yüksəlmişdir.

Həsənbəy Zərdabinin fəaliyyətinin çiçəkləndiyi vaxt Azərbaycan tarixinin , mürəkkəb və keçid dövrünə təsadüf edir. Bu dövr, bir tərəfdən, Azərbaycanda feodal münasibətlərinin tədricən dağılması, digər tərəfdən, burjua cəmiyyətinin yaranması və daha sonralar, yəni

XX əsrin əvvəllərində kapitalizmdən imperializmə keçidin hazırlıq dövrü idi. Darvinist alim, böyük bir şəxsiyyət, maarifpərvər ictimai xadim, mübariz jurnalist, millətin qeyrətli, əzmkar, məqsədi uğrunda heç bir çətinlikdən çəkinməyən oğlu Həsənbəy Zərdabi dağılmaqda olan kapitalist cəmiyyətinin yaratdığı ziddiyyətləri, sadə seyrçi kimi izləməmiş, sadaladığımız keyfiy-yətlər məcmusunda öz münasibətini ifadə etmişdir və öz əqidəsi yolunda özünəməxsus tərzdə mücadilə aparmışdır.

Həsənbəy Zərdabinin yaşadığı dövrü, xüsusilə "Əkinçi" qəzetinin nəşrə başladığı 1875-ci illə 1905-ci illər arasındakı zamanı cəsarətlə Azərbaycan mədəniyyəti tarixinin Həsənbəy Zərdabi dövrü adlandıra bilərik. Fikrimizi aşağıdakı amillərlə izah etsək, yanılmarıq:

1. Cəmiyyətin hər bir sahəsində inkişaf və tərəqqi baş verdiyi dövrdə H.Zərdabi ilkin maarifçilərdən olmasa da, bu prosesin önündə gedən və bu işdə öz sözünü deyən, Azərbaycan mədəniyyətinə kifayət qədər xidmət göstərən bir şəxs kimi milli teatrın, milli mətbuatın əsasını qoyur. Mədəniyyət məhz mətbuatdan başlanır. Buna görə də anadilli mətbuatın yaradıcısının Azərbaycan mədəniyyəti tarixində bir mərhələ təşkil etməsi inkar edilməzdir.

2. Bu fəaliyyət təkcə təşkilatçılıqla bitmir. Azərbaycan mədəniyyətinin türkçülük, milli istiqamətdə inkişafını müəyyənləşdirir.

3. Azərbaycan mədəniyyəti istər-istəməz qərbləşmə meylləri ilə müşayiət edilirdi. İnkişaf üçün qərb, Avropa model olsa da, milli adət-ənənələri, milli dünyagörüşü ona qurban vermək olmazdı. Bu missiyanı məhz Zərdabi, onun "Əkinçi" qəzeti və bu qəzet ətrafında toplaşan maarifpərvər ziyalılar yerinə yetirirdi.

Paraqrafın sonunda bütün deyilənlər yekunlaşdırılaraq, qeyd olunur ki, görkəmli maarifçi-demokrat H.Zərdabinin dünyagörüşü müəyyən sosial-iqtisadi şərtlərlə yanaşı, mütərəqqi dünya mədəniyyətinin təsiri altında formalaşmışdır.

Dissertasiyanın **"Əkinçi" qəzeti Azərbaycan tarixinə dair mənbə kimi"** adlı II fəsli üç paraqrafdan ibarətdir. Birinci paraqraf **"Əkinçi" qəzeti, onun strukturu, tərkibi, janrları və təhlili metodları"** adlanır. Burada qəzetin nəşrinə başlamazdan əvvəl və nəşr olunduqdan sonra H.Zərdabinin üzləşdiyi maneələrdən, qəzetin

strukturu, ayrı-ayrı bölmələrin təhlili, onların daşıdığı informasiya yükü, eləcə də qəzetin müxbirləri haqqında ətraflı məlumat verilmişdir. “Əkinçi” qəzeti iki həftədə bir dəfə çıxmaqla aşağıdakı bölmələri əhatə edirdi: 1.Daxiliyyə (ölkə-daxili xəbərlər); 2.Əkin və ziraət xəbərləri; 3.Elm xəbərləri; 4. Təzə xəbərlər; 5.Elanlar. Verilən bölgü nisbi xarakterlidir. Çünki qəzetin ayrı-ayrı saylarında “Elanlar” və “Məktubat” şöbələri bir-birini əvəzləmişdir. Qəzetin birinci nömrəsi məhz qeyd olunan ardıcıllıqla çıxmış, sonrakı nömrələrdə “Elanlar” bölməsi bəzən verilmiş, bəzən ixtisara düşmüş, “Məktubat” şöbəsi isə ardıcıllıq nümayiş etdirmişdir. Qalan bölmələr qəzetin bütün saylarında verilmiş, “Əkin və ziraət xəbərləri” bölməsi isə bir sıra saylarda “Əfali-əhli-dehat” başlığı altında verilmişdir. Bu paraqrafda “Əkinçi” qəzetindən istifadə edərkən onun dilinə, buradakı köhnəlmiş sözlərə, terminlərə, istilahlara dərindən bələd olmağın zəruriliyi qeyd olunmuş və qəzetin həmin dövrün Azərbaycan türkcəsinə onlarla yeni söz və ifadə gətirməsi vurğulanmışdır.

**““Əkinçi” qəzeti Azərbaycanın ictimai-iqtisadi və siyasi vəziyyətini öyrənmək üçün mənbə kimi”** adlı ikinci paraqrafda qəzetin bölmələrində gedən informasiya və məlumatların əhatəli və çoxşaxəli olduğu qeyd olunur və bu məlumatların bəziləri sistemləşdirilir. “Əkin və ziraət xəbərləri” bölməsində gedən məlumatlar aşağıdakı kimi qruplaşdırılmışdır: 1. Əkin yerinin, torpağın aqrar xüsusiyyətləri haqqında; 2. Suvarma üsulları haqqında; 3. Torpağın məhsuldarlığının artırılması haqqında; 4. Məlum və yeni tapılan kənd təsərrüfatı bitkiləri haqqında məlumat; 5. Kənd təsərrüfatı bitkilərinin zərərvericilərdən qorunmasının üsulları haqqında; 6. Kənd təsərrüfatı bitkilərindən məişətdə lazım olan məhsulların istehsal edilməsi haqqında; 7. Kənd təsərrüfatı texnikası və müvafiq alətlərin, əşyaların qorunması haqqında; 8. Bağçılıq və bostançılıq haqqında; 9. Heyvandarlıq və heyvana qulluq haqqında; 10. Baytarlığa aid məlumat və məsləhətlər; 11. Süd və süd məhsullarından səmərəli istifadə qaydaları haqqında; 12. Kənd təsərrüfatı məhsullarının saxlanılması haqqında; 13. Məişət məsləhətləri.

Qəzetin siyasi görüşlərinin əsas istiqaməti ondan ibarət idi ki, o yeni kapitalist cəmiyyətinin təşəkkülünü və onun vaxtı keçmiş feodal-ictimai münasibətləri ilə müqayisədə əhəmiyyətini dərk

etmişdi. Bununla yanaşı qəzetin kollektivi, başda Həsənbəy Zərdabi olmaqla, çarizmin istismarçı, zülmkar, və milli mədəniyyəti və inkişafı cilovlayan siyasətini cəsarətlə ifşa etmişlər.Milli şüurun formalaşması müstəmləkə zülmünə qarşı, milli suverenlik uğrunda mübarizədə vacib şərt idi. Və bu mübarizədə "Əkinçi" qəzetinin müstəsna rolu olmuşdur. Hətta milli hərəkatın başlanğıcının "Əkinçi" qəzetinin nəşr olunduğu ildən, yəni 1875-ci ildən götürüldüyü qeyd olunmuşdur.

**""Əkinçi" qəzeti maarif, elm və mədəniyyət məsələlərini öyrənmək üçün mənbə kimi"** adlanan üçüncü paraqrafda qeyd olunur ki, Həsənbəy Zərdabi xalqın başına gələn fəlakətlərin əsas səbəbini savadsızlıqda, cahillik və fanatizmdə görürdü. Vəziyyətdən çıxış yolunun isə maariflənmək, elm öyrənmək və savadlanmaq olduğunu hesab edirdi. Bu işdə "Əkinçi" qəzetindən bir təbliğat vasitəsi kimi istifadə olunurdu. Maarifçilik elmlə sıx bağlı anlayış olduğundan, qəzetin "Elm" başlığı altında verilən bölməsində bir çox unikal məlumatlar, tarixi həqiqətlər, faktlar verilmişdir. Məlumatların çoxşaxəliliyi və universallığı nəzərə alınaraq bu paraqrafda onlar aşağıdakı kimi sistemləşdirilmişdir: 1. Təbiətşünaslıqla bağlı elmi xəbərlər; 2. Tibb elminə aid xəbərlər; 3. Botanika və zoologiya sahəsinə aid xəbərlər; 4. Kənd təsərrüfatı (meşəçilik, heyvandarlıq, baytarlıq, əkinçilik, bostançılıq) sahəsi ilə bağlı elmi xəbərlər; 5. Tarix, coğrafiya və digər ictimai elmlərlə bağlı məlumatlar; 6. Mədəniyyətşünaslıqla bağlı xəbərlər; 7. İqtisadiyyatla bağlı xəbərlər; 8. Statistika sahəsinə aid xəbərlər; 9. Hüquq və kriminalistika sahəsi ilə bağlı xəbərlər.

Eyni zamanda qeyd olunur ki, "Əkinçi" qəzeti öz səhifələrində xalq üçün maraq doğuran, məzmunca ona yaxın olan xüsusi məlumatlar – reklamlar çap etməklə Azərbaycanda reklam sahəsinin tarixində də önəmli yer tutmuşdur.

**"Əkinçi" qəzetində erməni millətçiliyinin tənqidi"** adlı III fəsildə erməni millətçilərinin riyakarlığı, cinayətkarlığı, törətdikləri qırğınlar haqqında məlumat verilmiş və iki əsrdən çox davam edən erməni terrorçuluğunun "Əkinçi" qəzetinin fəaliyyət göstərdiyi dövrdə də aktiv olduğu qeyd edilmişdir. Xüsusilə, XIX əsrin ikinci yarısındakı çar hökumətinin islahatları milli zülmün güclənməsinə xid-

mət etməklə yanaşı, bilərəkdən sənaye və kənd təsərrüfatında ermənilərin, rusların mövqeyini möhkəmləndirirdi. Məsələn, 1872-ci ildə neft sənayesində iltizam sisteminin ləğvinə qədər neftin yalnız 88 faizi azərbaycanlı sahibkarlarına məxsus idi. Bu rəqəm o qədər də ürəkaçan deyil. Ölkənin milli sərvətinə millətin nümayəndələri sahibkarlıq etməlidir. Lakin getdikcə bu rəqəm daha da azalırdı. Məsələn, 1901-ci ildə Bakıdakı 167 neft şirkətindən 49-u azərbaycanlıların, 55-i isə ermənilərin sərəncamında idi. Rəqəmlərin müqayisəsindən belə məlum olur ki, "Əkinçi" qəzeti ermənilərin Azərbaycanda əlqolunun açmasının yüksələn xətt üzrə inkişafının ilkin mərhələlərində fəaliyyət göstərib. Lakin bununla belə, hadisələrə obyektiv qiymət verməkdə, erməni məkrli siyasətinin məqsədini duymaqda və onu izah etməkdə XX əsrin əvvəllərində (əsrin ortalarında sovet imperiyası buna yol verməzdi) fəaliyyət göstərən qəzetlərdən aktivliyi ilə, bu mövzuya həsr etdiyi və həyəcan təbili çaldığı məqalələrin sayının çoxluğuna görə heç də geridə qalmırdı. Qeyd etmək lazımdır ki, qonşuların məskunlaşdığı ərazidə bu qəzetə qarşı əks mövqedə duran qəzetlərin sayı çox idi. Mətbuat tarixindən danışarkən ermənilərdə nəşr olunan qəzetlərin sayının ona çatdığını artıq qeyd etmişdik. Azərbaycan isə tək bir qəzetlə, özü də çarın ciddi senzurası altında çap olunan bir mətbuat vasitəsi ilə çar senzurasının onlar üçün geniş imkanlar açdığı böhtankar on qəzetə qarşı çıxış edirdi və bu işin öhdəsindən kifayət qədər gələ bilirdi. Müasir mərhələdə milli müstəqilliyin ölkə mətbuatına yaratdığı şəraiti nəzərə aldıqda, deyə bilərik ki, "Əkinçi" qəzeti heç də varislərindən az iş görməmişdir.

"Əkinçi" qəzeti həm məlumatı verən tarixi mənbə, həm də dövrün ictimai-siyasi vəziyyətini araşdıran icmalçı mövqeyində çıxış etmiş, öz səhifələrində erməni riyakarlığını, onların məkrli siyasətini ifşa edən məlumatlar vermiş və bir sıra hallarda yalan məlumatları təkzib edən faktları açıqlamaqla tarixi həqiqətin üzə çıxarılmasına çalışmışdır. Bəzən isə qəzet Azərbaycan xalqını qəflət yuxusundan ayıltmaq üçün erməni böhtanına məruz qalmış digər türkdilli dövlətlərin təcrübəsindən ibrət götürməyə çağırmışdır: "İstanbuldan firəng dilində basılan "Tems" qəzetinə yazırlar ki, Osmanlı dövlətinin Anadolu vilayətində sakin olan ermənilər öz patriarxlarından iltimas ediblər ki, dövləti Osmanidən təvəqqə eləsin:

1. Məxsusi yerlər barəsində təzə qanun qoyulsun;

2. Dərəbəyilərinə hökm olsun ki, erməniləri incitməsinlər;

3. Ermənilərin şahidliyini divanlarda qəbul eləsinlər… ".[1]

Erməni riyakarlığını, məkrli siyasətini ifşa edən məlumatlar "Əkinçi" qəzetinin səhifələrində kifayət qədərdir. Belə məlumatlar qəzetin həm "Məktubat", həm "Təzə xəbərlər", bəzən isə "Daxiliyyə" bölmələrində vaxtaşırı çap olunmuşdur. Qeyd etmək lazımdır ki, qəzetdə həmçinin xalqın elm və təhsil, maarifçilik ənənələrinin inkişafı üçün ibrət götürüləsi məlumatlar da çap olunmuşdur: "Keçən aprelin 28-də Badkubədə ermənilər teatr çıxartdılar ki, ondan cəm olan məbləğ ilə bu il gimnaziyadan qurtaran fəqir uşaqları Peterburqa elm təhsil etməyə göndərsinlər."[2] Və ya: "Burada təəccüb edirlər ki, Qafqazda iki milyonacan müsəlman var, amma bunilə belə bircə qəzeti də dolandıra bilmir və halonki yarımca milyon ermənilərin 4 qəzetləri və 4 jurnalı var."[3]

Həmin dövrdə böhtankar erməni qəzetləri sırasında ən fəal mövqeyi "Mşak" qəzeti tuturdu. Bu qəzet, demək olar ki, hər sayında azərbaycanlılar, türk xalqları, Osmanlı dövləti haqqında böhtan və yalanlar yazaraq, dünyanın aparıcı ölkələrinin nəzərində özləri barədə əzilən, döyülən, haqqı alınan və tapdalanan bir millət imici yaratmağa çalışırdı. "Əkinçi"nin bir sıra nömrələrində həmin dövrün qatı millətçi mövqeyi ilə seçilən erməni qəzeti "Mşak" və onun redaktoru Arsruyə qarşı kəskin yazılara təsadüf edilir: Həsənbəy Zərdabinin müsəlmanların mənəvi birliyinin vacibliyi haqqındakı fikirlərinə Arsruni torpaq iddiaları ilə cavab vermişdi. Bu haqda qəzetdə oxuyuruq: "Bizim qəzetin 24-cü nömrəsində qurban bayramının əsl mətləbi barəsində yazılan daxiliyyəni Tiflis şəhərində erməni dilində çap olunan "Mşak" qəzeti erməni dilinə tərcümə elədib…Heç gorunübdür ki, bizim zəmanədə elm oxumuş adam xalqı Məkkəyə getməyə təhrik edə və ittihadi-islam fikrinə düşə və ittihadi-islam heç məqdurdurmu? Xülasə, bu tövr ilə çox danışıb axırda deyir: Verin bizə bizim yerləri ki, keçmişdə onları güc ilə zəbt etmisiniz və ondan sonra gedib ittihadi-islamı o səhralarda eləyin ki, orada islam bina

---

[1] "Əkinçi", 1876, 8 oktyabr, № 19.
[2] "Əkinçi", 1876, 13 may , № 9.
[3] "Əkinçi", 1876, 22 dekabr , № 24.

olub və monqol tayfasını birləşdirməyə səy edin… Ey cənab, Arsruni (zikr olan qəzetin münşisinin adıdır) əgərçi cənabınız doğru buyurursunuz ki, zəmanəmiz elm zəmanəsidir və bu halda ermənilər bizdən artıq elm təhsil etməyə rağibdirlər, amma…. Neçə yüz ildir ki, biz ermənilər ilə qonşuluq edirik, indi cənabınıza eyb deyilmi ki, bizim aramızda ədavət salırsınız… Be hər təqdir nişi- əqrəb nə əz rəhi-kinəst (Hər halda əqrəbin sancmağı qisasdan ötrü deyil)".[1]

Bu mürəkkəb dövrdə "Əkinçi" qəzeti və onun naşiri Zərdabi bu torpaqların həqiqi sahiblərinə qarşı iddiaya başlayan erməni ideoloqlarının qarşısında yeganə sipərə çevrilmişdi. Dissertasiyada bu faktın təsdiqi olan zəngin faktlar diqqət önünə çəkilir.

Həsən bəy Zərdabi və onun təsis etdiyi "Əkinçi" qəzetində çalışan ziyalılar milli ruhlu, maarifçi, dövrün bir çox sahədəki biliklərə, geniş dünyagörüşünə malik olmaqla yanaşı, həm də uzaqgörən siyasətçi kimi təqdim edilə bilərlər. Bunu deməyə onların təkcə erməni riyakarlığını ifşa edən məlumatlara xüsusi yer ayırmaları və bu məlumatları nə qədər çətin olsa da belə, gücü çatdıqları səviyyədə açıqlamaları imkan verir.

Dissertasiyanın "Nəticə" hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilmiş, aparılan araşdırmalara yekun vurularaq, gələcək perspektivlər müəyyənləşdirilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi məqalələrində əksini tapmışdır:**

1. Azərbaycanda 1918-ci ilin mart-aprel hadisələrində "Daşnakcütyun" partiyasının rolu // "Bakı Universitetinin xəbərləri". Humanitar elmlər seriyası, 2005, № 1, s.150-157.
2. Milli mətbuatın yaranmasına təkan verən tarixi amillər // "Elmi axtarışlar" jurnalı, XIX , 2006, s. 203-208.
3. "Əkinçi" qəzetinin "Daxiliyyə" bölməsi tarixi mənbə kimi // "Elmi axtarışlar" jurnalı, XIX, 2006, s. 208-211.
4. "Əkinçi" qəzetində erməni riyakarlığını ifşa edən tarixi faktlar // "Elmi axtarışlar" jurnalı, XXIX, 2006, s. 185-190.

[1] "Əkinçi" 1877, 17 fevral, № 4

5. “Əkinçi” qəzeti və Azərbaycan reallıqları // “Tarix və onun problemləri” , 2007, № 1, s. 349-353.

6. Azərbaycan mədəniyyəti tarixində Zərdabi mərhələsi // “Elmi axtarışlar” jurnalı, I/ 2008, s. 241-249

7. Газета «Экинчи» об истории государств Центральной Азии 70-х гг. XIX в. // Современные гуманитарные исследования, Москва, 2008, № 6, s. 33 - 38.

8. “Əkinçi” qəzetinin “Elm xəbərləri” bölməsi mənbə kimi // Tarix və onun problemləri, 2009, № 4, s. 369-375

9. «Якинчи» гязетиндя ермяни миллятчилийинин тянгиди / «Щ.Ялийев вя Азярбайъан Республикасынын бейнялхалг ямякдашлыг сийасятинин ясас инкишаф тенденсийалары» мювзусунда 06-07 май 2010-ъу ил тарихдя кечирилмиш елми-практик конфрансын материаллары, Бакы, 2010, с. 370-375

10. Рубрики газеты «Экинчи» как исторический источник // Актуальные проблемы гуманитарных и естественных наук, 2011, № 2, с. 34-37

11. “Əkinçi” qəzetinin “Məktubat” bölməsi mənbə kimi. Doktorantların və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları, 2011, с. 216-217

12. Газета «Экинчи» как источник сведений по истории Азербайджана // Вестник ПГЛУ (Пятигорского Государственного Лингвистического Университета), Пятигорск: ПГЛУ, 2011, № 2, с. 179-181

13. Газета «Экинчи» как исторический источник // III Международная заочная научно–практическая конференция «Современные аспекты общественно-политического развития России и стран мира», Сборник материалов конференции, Краснодар, 2012, с.41 – 42.

**К.М.Гаджиева**

# ГАЗЕТА «ЭКИНЧИ» («ЗЕМЛЕДЕЛЕЦ») КАК ИСТОЧНИК ИЗУЧЕНИЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА ВТОРОЙ ПОЛОВИНЫ XIX века

## Резюме

Диссертационная работа состоит из «Введения», трех глав, «Заключения» и списка использованной литературы.

Во «Введении» обосновываются актуальность темы, научная новизна, теоретическая и практическая значимость работы; даются сведения об объекте, целях, задачах, источниках и методах исследования, об апробации и структуре диисертации.

Первая глава называется «Исторические условия формирования азербайджанской национальной печати». В первом параграфе «Факторы, обусловливающие формирование печати», речь идет об изменениях, происходивших в экономике, общественно-политической жизни Азербайджана во второй половине XIX в., об их влиянии на культуру, науку, образование и другие области, о развитии просветительства и т.д. Отмечается, что мировые тенденции развития и прогресса влияли на область печати, которая в тот период не имела достаточного потенциала для активного функционирования. Гасан бек Зардаби, получивший образование в России и вернувшийся на родину, смог создать в Азербайджане печать, сыгравшую исключительную роль в прогрессе и национальном возрождении.

Во втором параграфе «Гасан бек Зардаби и формирование его общественно-политических взглядов» речь идет о жизни, деятельности, образовании Зардаби, о факторах, влиявших на формирование его мировоззрения. Период издания газеты «Экинчи» с 1875 по 1905 г. характеризуется как «зардабинский этап» в истории культуры Азербайджана.

Вторая глава «Газета «Экинчи» как источник истории Азербайджана» состоит из трех параграфов. В первом параграфе «Газета «Экинчи», её структура, состав, жанры и аналитические методы» исследуются разделы газеты «Экинчи» и их инфор-

мационная нагрузка. Отмечается, что большинство материалов в газете печаталось в прозе, часть же - в стихотворной форме (например, назидания С.А.Ширвани). Особо подчёркивается роль газеты в обогащении азербайджанского языка десятками новых слов и выражений.

Во втором параграфе «Газета «Экинчи» как источник изучения общественно-экономической и политической ситуации в Азербайджане» даётся группировка сведений, публиковавшихся в разделе «Новости посева и земледелия»; освещается роль газеты «Экинчи» в формировании национального сознания на начальном этапе национально-освободительного движения (1875-1905 гг.).

В третьем параграфе «Газета «Экинчи» как источник изучения проблем просвещения, науки и культуры» отмечается, что выход из тяжелого положения, в которое попал народ из-за невежества, мракобесия, Гасан бек Зардаби видел в построении широкой сети просвещения и передовой системы образования, и по этой причине в каждом номере газеты «Экинчи» пропагандировались просветительские идеи, составлявшие основную цель газеты.

В данном параграфе публиковавшиеся в газете научные новости группируются по различным областям науки (например: естествознание, медицина, география, история и другие общественные науки).

В третьей главе диссертации «Критика армянского национализма в газете «Экинчи» анализируются материалы, разоблачающие лицемерие, вероломность армян, присваивающих чужие национально-духовные ценности и не гнушающихся клеветы для достижения своих целей. В некоторых номерах газеты отражена полемика с армянской газетой «Мшак», занимавшей националистическую позицию, и её редактором Арсруни. Таким образом, Гасан бек Зардаби и сотрудничавшие с ним в газете представители азербайджанской интеллигенции, публикуя изобличительные материалы, вели борьбу с армянским национализмом.

В «Заключении» обобщаются основные результаты и выводы исследования.

**K.M.Hajieva**

# THE NEWSPAPER "EKİNCHİ" ("CROP-GROWER") AS A SOURCE OF STUDY OF THE AZERBAIJAN HISTORY OF THE SECOND HALF OF THE XIX century

## Summary

The dissertation consists of "Introduction", three chapters,"Conclusion" and bibliography.

In "Introduction" are substantiated the urgency of the subject, the scientific novelty, theoretical and practical significance of the work; is given information about the object, purpose, tasks, sources and methods of the research, about the appraisal and structure of the dissertation.

The first chapter is called "The historical conditions of formation of Azerbaijanian national press". The first paragraph "The factors causing formation of the press" deals with the changes that took place in Azerbaijan in the second half of the XIX century, their influence on culture, science, education and other spheres; the development of enlightenment etc. It is emphasized that the world tendencies of development and progress influenced the sphere of the press that didn't have enough potential to function very actively during that period. Hasan bey Zardabi who got education in Russia and returned to his motherland was able to create the press in Azerbaijan that played an important role in the progress and national renascence.

The second paragraph "Hasan bey Zardabi and formation of his social-political views" deals with the factors that influenced formation of his world outlook. The period of publication of the newspaper "Ekinchi" from 1875 to 1905 is defined as "Zardabi stage" in the history of Azerbaijanian culture.

The second chapter "The newspaper "Ekinchi" as a source of the history of Azerbaijan" consists of three paragraphs. In the first

paragraph “The newspaper “Ekinchi”, its structure, genres and analytical methods” are studied sections of the newspaper “Ekinchi” and their informative load. It is emphasized that most materials were published in prose and the other part was published in verse form (for example, S.A.Shirvani's sermons). Is elucidated the role of the newspaper in the enrichment of the Azerbaijanian language by tens of new words and expressions.

In the second paragraph “The newspaper “Ekinchi” as a source of study of social-economic and political situation in Azerbaijan” is grouped the information published in the section “News about and agriculture”; is elicidated the role of the newspaper “Ekinchi” in formation of the national consciousness on the first stage of the national-liberation movement (1875-1905).

In the third paragraph “The newspaper “Ekinchi” as a source of study of educational, scientific and cultural problems” is noted that the Azerbaijanian people were in difficult conditions because of ignorance, obscurantism and Hasan bey Zardabi thought that the only way out is to create wide elucidative net and educational system. That is why every number of “Ekinchi” propagandized educative ideas that were the main purpose of the newspaper. In this paragraph the scientific news published in the newspaper is grouped on the different spheres of science (for example: natural science, medicine, geography, history and other social sciences).

In the third chapter of the dissertation “Criticism of the Armenian nationalism” in the newspaper “Ekinchi” are analysed the materials that exposed hypocricy, treachery of the Armenian that arrogated the other's national-mental values to themselves, stopped at nothing and slandered to achieve their purpose. In some numbers of the newspaper is reflected the palemics with the nationalistic Armenian newspaper “Mshak” and its editor-in-chief Arsruni. Thus Hasan bey Zardabi and Azerbaijanian intellectuals who worked on the paper struggled against the Armenian nationalism publishing exposing materials.

In “Conclusion” are generalized the results of the research.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**КЁНУЛЬ МАЛИК гызы ГАДЖИЕВА**

# ГАЗЕТА «ЭКИНЧИ» («ЗЕМЛЕДЕЛЕЦ») КАК ИСТОЧНИК ИЗУЧЕНИЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА ВТОРОЙ ПОЛОВИНЫ XIX века

**55 09.01 – Историография, источниковедение и методы исторических исследований**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ - 2013**